1_Layout 1 31.10.2019 14:25 Page 1

Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.
İlham ƏLİYEV

ƏSGƏR

№ 21 (562)
1 noyabr
2019-cu il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

Qoşulmama Hərəkatının Bakı Zirvə Görüşündə Ermənistan 120 dövlət tərəfindən işğalçı ölkə kimi tanındı

Hərəkata üzv ölkələr Azərbaycanın ərazi bütövlüyünə ciddi dəstək ifadə etdilər

Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə Görüşü Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın ədalətli mövqeyini daha da gücləndirdi. Qəbul edilmiş sənədlərdə dövlət və hökumət başçıları münaqişənin BMT Təhlükəsizlik Şurasının qətnamələrinə baxmayaraq, hələ də həll olunmamasından təəssüf hissi keçirdiklərini bildirir və onun Azərbaycanın suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı əsasında həll olunmasının vacibliyini vurğulayırlar.

AZƏRTAC xəbər verir ki, Yekun Sənədə ilk dəfə olaraq çox mühüm yeni bənd daxil edildi. Bu bənddə dövlət və hökumət başçıları güc yolu ilə ərazilərin zəbt edilməsinin yolverilməzliyini vurğulayır və təsdiq edirlər ki, heç bir dövlət Azərbaycan Respublikasının ərazilərinin işğal edilməsi nəticəsində yaranmış vəziyyətin qanuniliyini tanımayacaq, bu ərazilərdə iqtisadi fəaliyyətlər də daxil olmaqla, bu cür vəziyyətin saxlanması üçün hər hansı kömək göstərməyəcək. Burada bilavasitə işğalçı ifadəsindən istifadə olunur. Bu, Ermənistanın növbəti dəfə 120 dünya dövləti tərəfindən işğalçı kimi tanınması deməkdir.

Zirvə Görüşündə qəbul edilmiş sənədlər Azərbaycanın qlobal miqyasda mədəniyyətlərarası dialoqun təşviq olunması sahəsində nümayiş etdirdiyi liderliyi yüksək qiymətləndirir.

Yekun Sənəddə dövlət və hökumət başçıları nasist hərəkatının, neonasizmin və "Vaffen SS" təşkilatının keçmiş üzvlərinin, onlara abidə və heykəllərin ucaldılması, nasist keçmişi, nasist hərəkatı və neonasizmin qəhrəmanlaşdırılması naminə ictimai nümayişlərin keçirilməsi, eləcə də anti-Hitler koalisiyasına qarşı döyüşmüş və nasist hərəkatının iştirakçıları ilə işbirliyi etmiş şəxslərin milli azadlıq hərəkatının iştirakçıları kimi qələmə verilməsi daxil olmaqla, hər hansı bir formada qəhrəmanlaşdırılmasını qınadılar. Bu, Azərbaycan

Prezidenti İlham Əliyevin MDB Dövlət Başçıları Şurasının Aşqabadda keçirilmiş Sammitində Ermənistanda Qaregin Njdenin qəhrəmanlaşdırılması ilə bağlı səsləndirdiyi fikirlərə beynəlxalq səviyyədə verilən dəstəyin göstəricisidir.

Yekunda qəbul olunmuş Bakı Bəyannaməsində Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi səylərinə ciddi dəstək ifadə olunub: "Biz, dövlət və hökumət başçıları Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə möhkəm dəstəyimizi ifadə edirik və Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi ilə bağlı səyləri ilə həmrəyliyimizi ifadə edirik".

Ermənistan və onun havadarlarının dəridən-qabıqdan çıxmasına baxmayaraq, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük diplomatik uğura imza atdı, 120 dövlətin təmsil olunduğu Zirvə Görüşünün nəticəsində Ermənistanın işğalçı dövlət kimi ifşa edilməsinə nail oldu.

Yekun Sənəddə deyilir: "Üzv ölkələrin dövlət və hökumət başçıları Azərbaycan Respublikasının təşəbbüsü ilə Qoşulmama Hərəkatının Bakı Sammiti çərçivəsində oktyabrın 24-25-də ilk dəfə olaraq Qoşulmama Hərəkatı Gənclər Sammitinin təşkil olunmasını alqışlayır və dayanıqlı tərəqqinin təmin edilməsi sahəsində çağırışlar barədə və onların cavablandırılmasına yönəlmiş birgə səylərə dair üzv dövlətlərin gəncləri arasında fikir mübadiləsinin aparılmasına imkan yaradan Gənclər Şəbəkəsinin yaradılmasını dəstəkləyirlər".

Dövlət və hökumət başçıları BMT Təhlükəsizlik Şurasının qətnamələrinə baxmayaraq, Ermənistan-Azərbaycan münaqişəsinin hələ də həll olunmamasından təəssüf hissi keçirdiklərini bildirdilər. Onlar BMT Nizamnaməsində öz əksini tapmış gücdən istifadə etməmək prinsipini yenidən təsdiqlədilər və tərəfləri münaqişənin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı əsasında danışıqlar yolu ilə həll olunmasına ruhlandırdılar.

Yekun Sənədə Azərbaycanın təklifi ilə aşağıdakı bəndlər daxil edilib:

Dövlət və hökumət başçıları silahlı münaqişə vəziyyətlərində məcburi köçkünlər üçün, o cümlədən, onların təhlükəsiz və ləyaqətli geri qayıdışı və insan hüquqlarının təmin edilməsi, qorunması sahəsində davamlı həll yollarının təşviqində üzv dövlətlərin başlıca məsuliyyəti olduğunu təsdiqlədilər. Bundan başqa, dövlət və hökumət başçıları Azərbaycan Respublikası tərəfindən 2008-ci ildə mədəniyyətlərarası dialoqun təşviqi üçün mühüm qlobal platforma qismində irəli sürülmüş "Bakı Prosesi" kimi milli, regional və qlobal təşəbbüslərin sivilizasiyalar arasında səmərəli dialoqun qurulmasına töhfəsini qiymətləndirdilər.

Azərbaycan xalqı və hökumətinə təşəkkür və həmrəylik Sənədində deyilir: "Biz, Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçıları, Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində keçirilən XVIII Zirvə Görüşü zamanı göstərdikləri yüksək qonaqpərvərliyə görə Azərbaycan Prezidenti İlham Əliyevə, Azərbaycan xalqına və hökumətinə dərin təşəkkürümüzü bildiririk. Biz, həmçinin, Prezident İlham Əliyevi Qoşulmama Hərəkatının tarixi Sammitinin uğurlu keçməsi üçün sərgilədiyi liderliyə görə təbrik edirik. Biz, dövlət və hökumət başçıları, Azərbaycan Respublikasının Hərəkatın təməl prinsiplərinə, o cümlədən, Bandunq Prinsiplərində əks olunan ideya və məqsədlərə, həmçinin, BMT-nin Nizamnaməsində əks olunan beynəlxalq hüququn norma və prinsiplərinə sadiqliyini yüksək qiymətləndiririk. Biz çoxtərəfliliyin təbliği, ədalət və bərabərhüquqlu beynəlxalq düzənə əsaslanan dinc və inkişaf edən dünyanın təşəkkül tapması istiqamətində Azərbaycan Respublikasının yorulmaz səylərini də alqışlayırıq. Biz, dövlət və hökumət başçıları Azərbaycanın müxtəlifliyə hörmət və qarşılıqlı anlaşmanın təşviq olunması sahəsində səylərini təqdir edirik. Bu xüsusda, Azərbaycan Prezidentinin rəhbərliyi ilə başlanmış və mədəniyyətlərarası dialoqun təşviqi üzrə əsas qlobal platforma kimi "Bakı Prosesi"nin töhfəsini yüksək qiymətləndiririk. Biz, dövlət və hökumət başçıları Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə möhkəm dəstəyimizi ifadə edirik və Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi ilə bağlı səyləri ilə həmrəyliyimizi ifadə edirik".

DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Qazaxıstan Respublikasının Daxili İşlər naziri, polis general-leytenantı Yerlan Turqumbayevin başçılıq etdiyi nümayəndə heyəti ölkəmizdə səfərdə olub.

Oktyabrın 14-də cənab Yerlan Turqumbayev və onu müşayiət edən şəxslər Fəxri xiyabana gedərək xalqımızın Ümummilli Lideri, müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin abidəsi önünə əklil qoyub, Ulu Öndərin əziz xatirəsini ehtiramla yad ediblər. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üstünə də tər çiçəklər düzülüb. Dost ölkənin təmsilçiləri Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş mərd mübarizlərin məzarlarını da ziyarət edib, onların xatirəsinə ucaldılmış "Əbədi məşəl" kompleksinin önünə əklil qoyublar.

Həmin gün Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov qazaxıstanlı həmkarının rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan nazir V.Eyvazov Daxili İşlər naziri vəzifəsinə təyin olunması münasibətilə polis general-leytenantı Yerlan Turqumbayevi təbrik edərək, bu səfərin əməkdaşlığın daha da möhkəmləndirilməsinə xidmət edəcəyinə əminliyini ifadə edib. Xalqlarımızı sıx dostluq, qarşılıqlı inam və hörmət tellərinin bağladığını, dövlətlərimiz arasındakı əlaqələrin hər zaman strateji tərəfdaşlıq xarakteri daşıdığını xatırladan nazir hər iki dövlət başçılarının müəyyənləşdirdikləri strategiyaya uyğun olaraq son illər bütün sahələrdə dinamik inkişafın müşahidə edildiyini, bu kontekstdə Azərbaycan və Qazaxıstan DİN-ləri arasındakı əməkdaşlığın daha da dərinləşdiyini, sahələrarası səmərəli işbirliyinin yeni məzmun kəsb etdiyini diqqətə çatdırıb.

General-polkovnik Vilayət Eyvazov ikitərəfli əlaqələrin, xüsusilə də transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində birgə səylərin, qabaqcıl təcrübə və operativ informasiya mübadiləsinin, həmçinin yaradılmış normativ-hüquqi bazanın ilk növbədə xalqlarımızın və dövlətlərimizin mənafelərinə, bölgədə təhlükəsizliyin təminə xidmət etdiyini vurğulayıb.

Qonaqlara müstəqilliyin ilk illərində üzləşdiyimiz problemlər, torpaqlarımızın işğalı, Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra cəmiyyətin bütün sahələrində, o cümlədən daxili işlər orqanlarında həyata keçirilən islahatlar, qəbul edilmiş yeni qanunlar barədə məlumat verilib, sabitliyin yaradılması və onun dönməzliyinin təmini, cinayətkarlıqla mübarizə və ictimai asayişin qorunması sahəsində görülən işlər barədə qısa məlumat verilib.

Qazaxıstan Respublikasının Daxili İşlər naziri, polis general-leytenantı Yerlan Turqumbayev səmimi qəbula, yüksək qonaqpərvərliyə və əhatəli məlumata görə azərbaycanlı həmkarına təşəkkürünü bildirib. Sonra Y.Turqumbayev ölkəsindəki mövcud kriminogen durum, cinayətkarlıqla mübarizənin vəziyyəti, ictimai asayişin mühafizəsi, insan hüquq və azadlıqlarının müdafiəsi, DİN sistemində həyata keçirilən islahatlar, əməliyyat-xidməti fəaliyyətin daha da təkmilləşdirilməsi və digər sahələrdə görülən işlər, həyata keçirilən islahatlar barədə ətraflı məlumat verib. O, rəhbərlik etdiyi qurumun Azərbaycanın Daxili İşlər Nazirliyi ilə əməkdaşlığı daha da genişləndirməkdə maraqlı olduğunu və səfərin bu məqsədə xidmət edəcəyinə əminliyini bildirib.

Səmimilik və işgüzarlıq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər barəsində də ətraflı fikir mübadiləsi aparılıb.

Qəbulda ölkəmizin Qazaxıstan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Rəşad Məmmədov iştirak edib.

2 - 2_Layout 1 31.10.2019 14:31 Page 1

DAXİLİ QOŞUNLARIN HƏRBİ ŞURASININ NÖVBƏTİ İCLASI KEÇİRİLİB

Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların komandanı Daxili Qoşunların qoşun təsərrüfatının qış mövsümünə hazırlığı, ümumiyyətlə, şəxsi heyətin maddi-texniki təminatı, sosial-məişət şəraitinin yaxşılaşdırılması üzrə görülmüş işləri qənaətbəxş qiymətləndirib

Oktyabrın 29-da Daxili Qoşunların Baş İdarəsində Hərbi Şuranın Daxili Qoşunların qoşun təsərrüfatının qış mövsümünə hazırlığının vəziyyətinə həsr olunmuş növbəti iclası keçirilib.

İclası giriş sözü ilə açan Hərbi Şuranın sədri, Daxili İşlər nazirinin müavini - Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədov bildirib ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin, o cümlədən Daxili Qoşunların maddi-texniki təminatı, hərbi qulluqçuların sosial-məişət şəraiti və maddi rifahı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin daim diqqət mərkəzindədir. Belə ki, dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasında mühüm rol oynayır.

Vurğulanıb ki, son illər Daxili Qoşunlarda quruculuq işləri sürətlə həyata keçirilməkdədir. Müasir texnika, silah, sursat və xüsusi vasitələr alınaraq şəxsi heyətin istifadəsinə verilib, sosialyönümlü obyektlərdə əsaslı təmir işləri aparılıb və bu işlər hazırda da davam etdirilir.

Həmçinin, 2019-cu ilin ötən dövrü ərzində şəxsi heyətin təminatı mövcud normalara uyğun tam həcmdə həyata keçirilib, texnikanın və xüsusi texnikanın qorunub saxlanılmasında, istismarında ciddi nöqsanlara yol verilməyib, əvvəlki illərdə olduğu kimi, cari ildə də xidməti-döyüş tapşırıqlarının maddi-texniki təminatı düzgün təşkil olunub. Qeyd olunan istiqamətlər Azərbaycan Respublikası Daxili İşlər nazirinin diqqət mərkəzində saxladığı prioritet məsələlərdəndir.

Daha sonra Daxili Qoşunlar komandanının müavini - Maddi-texniki təminat İdarəsinin rəisi general-mayor Fəxrəddin Səmədov Daxili Qoşunların qoşun təsərrüfatının qış mövsümünə hazırlığının vəziyyəti haqqında məruzə ilə çıxış edib.

Bildirilib ki, maddi-texniki təminatın hərtərəfli təşkili, hərbi qulluqçuların sosial vəziyyətinin yaxşılaşdırılması qoşunların uğurla inkişaf etməsinə, qarşıya qoyulmuş tapşırıqların keyfiyyətlə və vaxtında yerinə yetirilməsinə böyük təsir göstərir.

Bununla əlaqədar, cari il ərzində Daxili Qoşunların Baş İdarəsinin Maddi-texniki təminat İdarəsi tərəfindən Ali Hərbi Məktəb və hərbi hissələrin qarşısına qoyulmuş vəzifələrin və xidməti-döyüş tapşırıqlarının layiqincə yerinə yetirilməsi üçün tələb olunan maddi-texniki vasitələrlə təminatı fasiləsiz olaraq həyata keçirilib.

Belə ki, 2019-cu ildə qoşunlarda genişmiqyaslı təmir və abadlıq işləri görülüb. Ağstafa şəhərində patrul taborunun yerləşdirilməsi üçün yeni hərbi şəhərciyin inşası, təchizatı və istismara verilməsi üzrə hazırlıq işləri tam başa çatdırılıb, həmçinin, zabit, gizir və MAXE hərbi qulluqçuların məişət şəraitinin yaxşılaşdırılması məqsədilə Qəbələ şəhərində 80 mənzilli yataqxana binası əsaslı təmir olunaraq istifadəyə verilib.

Bundan əlavə, qoşunların bir sıra hərbi obyektlərində və xidmətaparma yerlərində cari təmir işləri aparılıb, istilik rejiminin tənzimlənməsi məqsədilə quraşdırılmış qazanxana avadanlıqlarına və qurğularına əsaslı texniki qulluq göstərilib, nasaz olanları yeniləri ilə əvəz olunub. Ali Hərbi Məktəbin və hərbi hissələrin içməli suya olan tələbatlarının ödənilməsi məqsədilə yeni su xətləri çəkilib, köhnə su boruları yeniləri ilə əvəzlənib.

Həmçinin, qoşunların döyüş hazırlığının yüksək səviyyədə saxlanılması məqsədilə nəqliyyat vasitələrinin qış mövsümündə fasiləsiz istifadəsini təmin etmək üçün müvafiq tədbirlər həyata keçirilərək, park təsərrüfatlarının hazırlığı yoxlanılıb. Şəxsi heyətlə mövsümi texniki xidmətin keçirilməsi, qış dövründə nəqliyyat vasitələrinin istismarı qaydaları, texniki xidmət və təmir işləri zamanı təhlükəsizlik tədbirlərinə riayət olunması mövzularında məşğələlər keçirilib. Qış mövsümünə keçidlə bağlı şəxsi heyətin isti geyim əmlakları ilə təmin olunması və müəyyən edilmiş normaya uyğun qida menyusunda müvafiq dəyişikliklərin aparılması da nəzərdə tutulub.

General-mayor F.Səmədov çıxışının sonunda soyuq hava şəraitində şəxsi heyətin sağlamlığının qorunması, qoşun təsərrüfatının qış mövsümünə hazırlığı ilə əlaqədar mövcud nöqsanların aradan qaldırılması və bununla əlaqədar qabaqlayıcı profilaktik tədbirlərin həyata keçirilməsi barədə məruzə edib.

Hərbi Şuranın iclasında Daxili Qoşunların Baş İdarəsinin Maddi-texniki təminat İdarəsində Mənzil-istismar xidmətinin rəisi polkovnik-leytenant Vidadi Məmiyev, bir sıra hərbi hissə komandirləri və onların maddi-texniki təminat üzrə müavinlərinin də mövcud vəziyyət, fəaliyyətdə yol verilmiş nöqsan və çatışmazlıqların yaranma səbəbləri və onların aradan qaldırılması istiqamətində görülən işlər barədə hesabat-çıxışları dinlənilib.

İclasa yekun vuran general-leytenant Ş.Məmmədov qış mövsümünə hazırlıqla əlaqədar şəxsi heyətin maddi-texniki və tibbi təminatı, sosial-məişət şəraitinin yaxşılaşdırılması və texnikanın istismarı üzrə tədbirlər planında nəzərdə tutulmuş işlərin tam olaraq başa çatdırılması üçün vəzifəli şəxslərə tapşırıqlarını verib.

Əminliklə bildirilib ki, Daxili Qoşunların şəxsi heyəti dövlət qayğısına cavab olaraq, yaradılan şəraitdən düzgün istifadə edəcək, təhkim olunan əmlakın qorunub saxlanılmasını təmin edəcək, yüksək döyüş hazırlığını saxlamaqla, qış mövsümünü uğurla başa vuracaqdır.

Mətbuat xidməti

GƏNC ÇAĞIRIŞÇILARIN QƏBULU DAXİLİ QOŞUNLAR KOMANDANLIĞININ NƏZARƏTİ ALTINDA HƏYATA KEÇİRİLİB

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamına uyğun olaraq, oktyabr ayının 1-dən etibarən Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında gənc çağırışçıların müddətli həqiqi hərbi xidmətə qəbulu prosesi həyata keçirilib.

Sərəncamdan irəli gələn tələblərin yerinə yetirilməsi məqsədilə, Daxili İşlər nazirinin müavini-Daxili Qoşunların komandanının “Daxili Qoşunlara çağırışçıların seçilməsi, qəbulu, daşınması və sıraya daxil edilməsi ilə əlaqədar təşkilati tədbirlərin keçirilməsi haqqında” əmri ilə çağırışçıların tibbi müayinəsinin aparılması və mənəvi-psixoloji durumunun qiymətləndirilməsi üçün seçim qrupu yaradılıb. Daxili Qoşunların Baş İdarəsinin Qərargahında təşkilat və komplektləşdirmə şöbəsi rəisinin müavini polkovnik-leytenant Yusif Məmmədov seçim qrupunun rəhbəri təyin edilib.

Qeyd etmək lazımdır ki, gənc çağırışçıların xidmətə qəbulu, yerləşdirilməsi və hərbi anda gətiriləndək müvafiq qaydada hazırlanması Daxili Qoşunlar komandanlığının daima diqqət mərkəzində saxladığı mühüm məsələlərdən biridir. Daxili Qoşunların sıralarına yenicə qəbul olunmuş çağırışçıların hərbi xidmətə tədricən uyğunlaşdırılmaları, hərbi nizamnamələrin müddəaları ilə tanış olmaları, eləcə də mənəvi-psixoloji durumlarının yüksək səviyyədə saxlanılması təsdiq edilmiş tədbirlər planına əsasən icra edilib. İlk olaraq, mənəvi-psixoloji hazırlıq planları hazırlanıb və hərbi hissə komandiri tərəfindən təsdiq olunub.

Seçim qrupunun üzvü - Daxili Qoşunların Baş İdarəsində Şəxsi heyət üzrə İdarənin mənəvi-psixoloji hazırlıq şöbəsində zabit mayor Fariz Qurbanov tərəfindən gənc çağırışçılarla fərdi söhbətlər aparılıb. Bu zaman onların demoqrafik məlumatları, məşğuliyyətləri, ailə vəziyyətləri, dünyagörüşü, Vətənə bağlılığı, orduya münasibəti, sosial vəziyyəti, təhsili, bacarıq və işgüzar keyfiyyətləri, yaxın qohumlarının məhkumluğunun olub-olmaması ətraflı öyrənilib. Həmçinin, onlara hərbi xidmətin üstünlükləri izah edilib, dövlət və dövlətçiliyə sadiqlik, Vətənə məhəbbət kimi ən müqəddəs hisslərin, döyüş ruhunun aşılanması, mənəvi-psixoloji durumun yüksəldilməsi məqsədilə Daxili Qoşunların şərəfli döyüş yolu, qəhrəmanları haqqında məlumat verilib. Bütün məlumatlar toplandıqdan sonra isə hər bir çağırışçının mənəvi-psixoloji durumu haqqında rəy hazırlanıb və hərbi hissəyə təqdim olunub.

Daha sonra çağırışçılar növbə ilə həkim-terapevt, ordinator-terapevt, həkim-endokrinoloq, baş ordinator-oftalmoloq tərəfindən müayinə olunublar. Onların profilaktik flüoroqrafik müayinədən keçirilməsi təmin olunub.

Çağırışçıların tibbi müayinədən keçirilməsi barədə məlumat verən qrupun üzvü - Daxili Qoşunların Baş İdarəsində Tibb xidməti rəisinin müavini tibb xidməti polkovnik-leytenantı Alışan Musayev deyib ki, səhhətində hər hansı bir problem aşkar olunan çağırışçı təkrar müayinə edilib, praktiki sağlam olanlar hərbi xidmətə qəbul olunublar. O, tibbi personalın normal işi üçün hərbi hissədə bütün zəruri şəraitin yaradıldığını da sözlərinə əlavə edib.

Onu da vurğulamaq yerinə düşər ki, çağırışçıların tibbi təminatı ilə yanaşı, onların əşya əmlakları ilə təmin olunmaları da diqqətdə saxlanılıb. Hər bir çağırışçı artıq öz bədən ölçülərinə uyğun hərbi geyimlərlə təmin olunub.

Çağırışçılar qəbul komissiyasından keçdikdən sonra onlarla hərbi hissədə bölük və taqım komandirləri tərəfindən tərbiyəvi söhbətlər aparılıb, hərbi xidmətə adaptasiya olunmaları üçün məsləhətlər verilib. Həmçinin, çağırışçıların ailədaxili problemləri, qayğıları, hərbi xidmətə olan münasibətləri də ətraflı öyrənilib, onlarla izahedici söhbətlər aparılıb. Hərbi xidmətə qarşı yanlış fikirlər olduqda, onları müsbət istiqamətə yönəltmək üçün tədbirlər həyata keçirilib, onlara Vətənə sevgi, məhəbbət hissləri aşılanıb.

Bundan əlavə, onlarla sıra, ictimai-siyasi, fiziki və atəş hazırlığı məşğələləri keçirilib, Daxili Qoşunların təyinatı və vəzifələri, istifadədə olan silahların taktiki-texniki xüsusiyyətləri, nişanalma və təhlükəsizlik qaydaları, hərbi qulluqçular arasında qarşılıqlı münasibətləri özündə əks etdirən müvafiq nizamnamələrin maddələri ilə bərabər, qanunvericilik aktlarının aidiyyəti müddəaları da öyrədilib.

Gənc çağırışçıların kazarma-məişət şəraiti haqqında danışarkən, vurğulamaq yerinə düşər ki, səliqə ilə yığılmış yataq dəstləri, çarpayılardan bir qayda olaraq, asılmış fərdi əl-üz və ayaq dəsmalları, həmçinin, əsgərlərin ləvazimatlarını saxladıqları əşya dolabları, eləcə də hər bir əsgərin özünə məxsus olan yuyunma ləvazimatlarının mövcudluğu gigiyenik qaydalara ciddi əməl olunduğunun göstəricisidir.

Bundan əlavə, bölmələrdə gənc çağırışçıların yuyunma yerlərində və məişət otaqlarında ciddi səliqə-sahman, onların saçlarının və geyim formalarının qaydaya salınması üçün lazım olan hər bir şərait yaradılıb.

Gənc çağırışçıların qidalanmasına gəldikdə isə birmənalı olaraq qeyd edə bilərik ki, yüksək keyfiyyətli və kalorili yeməklərlə qidalanma hissə komandanlığı tərəfindən ciddi nəzarətdə saxlanılır. Bu zaman əsasən milli təamlara üstünlük verilir. Qidalanma həftəlik bölgü cədvəlinə əsasən aparılır. Həftə ərzində onlara I xörək olaraq düyü şorbası, kələm şorbası, bozbaş, mərci şorbası, II xörəklərdən isə makaron süzməsi, lobyalı və ya mərcili düyü plovu ət qovurması ilə, qarabaşaq, dolma, kotlet kimi yeməklər verilir. Bununla yanaşı, gündəlik olaraq tərəvəz qəlyanaltısı və meyvə şirələri də qida rasionuna daxildir.

Qidaların tələb olunan səviyyədə keyfiyyətlə hazırlanması, gigiyena qaydalarına ciddi əməl olunması məqsədilə kurs keçmiş ixtisaslı əsgər aşpazlarla bərabər mülki işçilərin əməyindən də istifadə olunur.

Bütün bunlar onu deməyə əsas verir ki, hərbi hissədə yaradılan hərtərəfli şərait Daxili Qoşunların sıralarına xidmətə yeni qəbul olunmuş çağırışçıların Vətənə sədaqətli hərbi qulluqçu kimi formalaşmasında vacib rol oynayacaq.

baş leytenant
Xədicə Hacızadə

3_Layout 1 31.10.2019 14:39 Page 1

“BAŞLICA MƏQSƏDİMİZ QARŞIYA QOYULMUŞ TAPŞIRIQLARIN İCRASINA HƏR ZAMAN HAZIR OLMAQDIR”

DQBİ-nin Şəxsi heyət üzrə İdarəsinin məqsədli qrupunun tərkibində Daxili Qoşunların 17074 saylı hərbi hissəsinə üçgünlük ezam olunmağımın başlıca məqsədi şəxsi heyətin və bölmələrin nümunəvi xidmətini “Əsgər” qəzetində işıqlandırmaq idi.

Digər hərbi hissələrimizdə olduğu kimi, burada da xidmətin təşkil olunub aparılması üçün hər bir şərait yaradılıb. Şəxsi heyətin müşahidə olunan uğurlu xidməti bir daha onu deməyə əsas verir ki, Daxili Qoşunların hissə və bölmələri istənilən an qarşıya qoyulmuş tapşırıqları yerinə yetirməyə hazırdırlar.

Hərbi hissə komandiri polkovnik Rövşən Cəbrayılov xidməti-döyüş fəaliyyəti barədə geniş məlumat verərək, qarşıya qoyulmuş tapşırıqların yerinə yetirilməsinə hər an hazır olduqlarını qeyd etdi: **“Hərbi hissəmiz Daxili Qoşunların döyüş yolu keçmiş və ictimai təhlükəsizliyin keşiyində hər zaman mətin dayanmış hərbi hissələrindən biridir. 1992-ci ilin sentyabr ayından başlayaraq hissənin şəxsi heyəti respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etmişdir. Bu döyüşlər zamanı hərbi hissənin onlarla hərbi qulluqçusu şəhid olmuş və yaralanmışdır”**.

O qeyd etdi ki, hərbi hissənin yerləşdiyi şimal-qərb regionu iki xarici dövlətin ərazisilə həmsərhəddir, bu mühüm bölgədə ictimai təhlükəsizliyin təmin edilməsi və ictimai qaydaların qorunub saxlanılması qarşıya qoyulmuş əsas tapşırıqlardan biridir: **“Hərbi hissəmiz dislokasiya yeri və ətraf rayonlarda bir çox tapşırıqları layiqincə icra etmiş, polis orqanları ilə birgə müxtəlif vaxtlarda cinayətkar ünsürlərin sabitliyə təhlükə törədən pozuculuq fəaliyyətinin qarşısının alınmasını təmin etmişdir. Şəxsi heyət silahlı cinayətkarların zərərsizləşdirilməsi üzrə xüsusi əməliyyatlarda qətiyyət və peşəkarlığı ilə fərqlənmişdir”**.



Hərbi hissənin ərazisini gəzərkən bölmələrin şəxsi heyətilə ixtisas hazırlığı üzrə keçirilən məşğələlər zamanı onlar üçün yaradılmış hərtərəfli şərait ilə də yaxından tanış oldum. Əyani vəsaitlərlə təchiz edilmiş otaqlarda, eləcə də ərazidəki təlim şəhərciklərində şəxsi heyətlə günün nizam qaydalarına uyğun məşğələlər təşkil olunub keçirilirdi.

Ayrı-ayrı bölmələrin, o cümlədən, xüsusi təyinatlı dəstənin zabitlərinin şəxsi heyətlə keçdikləri məşğələ və təlimləri yaxından izlədim.

Vətənə sədaqət və düşmənə nifrət “Qartal”ların başlıca amalıdır

“Qartal” xüsusi təyinatlı dəstəsi hərbi hissənin nizam-intizamı, nümunəvi xidməti və yüksək döyüş hazırlığı ilə fərqlənən bölmələrindəndir.

“Xüsusi təyinatlılarla keçirilən məşğələlər zamanı onların hərbi bilik və bacarıqlarını artırmalarına xüsusi fikir verilir. Əsas diqqətimizi atəş və fiziki hazırlıq məşğələlərinə, həmçinin, silahlı cinayətkarın axtarılması və zərərsizləşdirilməsi üzrə praktiki fəaliyyətə yönəldirik. Bundan əlavə, şəxsi heyətin hərbi biliklərinin artırılması məqsədilə digər məşğələlərə də önəm verilir. Belə ki, hər bir xüsusi təyinatlının müxtəlif miqyaslı xəritələrdən, kompas və GPRS qurğusundan fərdi qaydada sərbəst istifadə edə bilməsi, eləcə də mühəndis hazırlığı üzrə müvafiq biliklərə malik olması vacib amillərdəndir”.

Mayor E.Hadıyev məşğələlər zamanı yüksək çalışqanlıq göstərən, nizam-intizamı və nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçuların adlarını qeyd etdi. Kapitan Nicat Bədəlov, gizir İsfəndiyar Allahverdiyev, MAXE hərbi qulluqçulardan baş çavuş Şəadət Xəlilov, baş çavuş Nahid İsgəndərov, baş çavuş Ruslan Sadıqov, baş çavuş Samir Mirzəyev, baş çavuş Tural Abdullayev, baş əsgər Xasay Rəsulzadə və baş əsgər Əsgər Rəhimov dəstədə əzmkar və peşəkar xüsusi təyinatlılar kimi xarakterizə edilirlər.

İlin bütün fəsillərində, müxtəlif iqlimə və relyefə məxsus ərazilərdə adına uyğun çevik fəaliyyət göstərmək qabiliyyətinə malik olan dəstənin təlim proqramları digər bölmələrin tədris proqramlarından fərqlənir. Hərbi qulluqçudan kifayət qədər fiziki güc və möhkəm iradəyə malik olmağı tələb edən məşğələlərə maraqla yanaşan xüsusi təyinatlılar, praktiki fəaliyyət zamanı yüksək peşəkarlıq göstərərək, qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gəlirlər.

Dəstə komandiri vəzifəsini icra edən mayor Elçin Hadıyev xüsusi təyinatlıların hazırlığını yüksək qiymətləndirərək, onların döyüş tapşırığını yerinə yetirməyə hər zaman qadir olduqlarını diqqətə çatdırdı: “Vətənə sədaqət və düşmənə nifrət “Qartal”ların başlıca amalıdır” - deyə fikirlərini bildirən dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Ziya Məmmədov, bu istiqamətdə aparılan tərbiyə işi tədbirlərinə də geniş aydınlıq gətirdi. Bildirdi ki, dəstədə yüksək döyüş hazırlığının qorunub saxlanılması, eləcə də xidmətin nümunəvi təşkil olunub aparılması məhz xüsusi təyinatlıların möhkəm hərbi intizamına söykənir. Bu baxımdan, dəstənin qarşısına qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi xüsusi təyinatlıların ahəngdar birgə fəaliyyətindən çox asılıdır. Mayor Z.Məmmədov şəxsi heyətlə aparılan tərbiyə işi tədbirlərinin əsas qayəsinin məhz dəstədə hərbi intizamın möhkəmləndirilməsi, hərbi-vətənpərvərlik əqidəsinin aşılanması və döyüş ruhunun yüksəldilməsi, kollektivdə yoldaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsindən ibarət olduğunu qeyd etdi.

Birinciliyi qoruyub saxlayan bölmə

Hərbi hissənin yüksək döyüş hazırlığı və nümunəvi xidməti ilə fərqlənən bölmələrindən birincisi olan kapitan Məmməd Məmmədovun komandiri olduğu xüsusi vasitələrin tətbiqi bölməsi haqqında məlumat vermək istərdim.

2019-cu ilin 1-ci yarımilinin xidməti-döyüş fəaliyyətinin yekunlarına görə bölmə hərbi hissə üzrə ən yüksək nəticə göstərərək, bölmələr arasında birinci yerə layiq görülüb. Dəstə komandiri vəzifəsini icra edən mayor Novruz Tahirovun qeyd etdiyi kimi, hərbi hissə üzrə birinciliyin əldə olunmasında bölmə komandiri kapitan M.Məmmədovun və ümumilikdə, kollektivin hər bir üzvünün rolu və zəhməti böyükdür.

Əldə olunmuş nailiyyətlərdən və qarşıya qoyulmuş tapşırıqların müvəffəqiyyətlə icra olunmasından bəhs edən kapitan M.Məmmədov bunu şəxsi heyətin lazımi hərbi biliklərə mükəmməl şəkildə yiyələnməsində görür: “Tapşırıqların müvəffəqiyyətlə icra olunması şəxsi heyətin qazandığı bilik və vərdişlərdən çox asılıdır. Müvafiq tədris proqramlarına uyğun nəzəri və praktiki məşğələlərin keçirilməsi üçün hərbi hissəmizdə hər bir şərait mövcuddur. Əgər müsbət nəticə əldə etmək istəyiriksə, o zaman şəxsi heyəti bu istiqamətdə mükəmməl hazırlamalı, onların məşğələlərə olan marağının artırılmasını təmin etməliyik. Əldə olunan müsbət nəticələr, təbii ki, yüksək nailiyyətlərin qazanılmasına zəmin yaradır”.

Dəstə komandirinin tərbiyə işləri üzrə müavini kapitan Elşad Qasımov kollektiv arasında mövcud olan möhkəm hərbi intizamın məhz bölmənin yüksək nailiyyət qazanmasında böyük rol oynadığını bildirdi. O, bölmədə hərbi intizamın möhkəmləndirilməsində və yüksək nailiyyətin əldə olunmasında əzmkarlıq göstərən hərbi qulluqçuların adlarını da çəkdi. Qrup komandirləri: baş leytenantlar Vasim Bayramov, Cavanşir Allahverdiyev, leytenant Elçin Xeyrullazadə, bölmənin başçavuşu gizir Şərif Mirzəməmmədov, eləcə də müddətdən artıq xidmət edən hərbi qulluqçular arasından seçilmiş fəallardan kiçik çavuşlar Fərid Nəbili və Coşqun Novruzov, həmçinin, əsgər Tural Ağaməliyevi məhz bölmənin nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçuları kimi xarakterizə etdi.

Silahdaşlarımızın vətənpərvər ruhda xidmət etdiklərini görəndə təbii ki, insanın qəlbi fərəh hissi ilə dolur. Onlara bu çətin və şərəfli xidmətlərində uğurlar arzulayırıq.

Başlıca vəzifəsi, ümumilikdə, Döyüş Bayrağının və hərbi obyektlərin etibarlı mühafizəsi və müdafiəsini təşkil etmək olan

KOMENDANT BÖLÜYÜNÜN

xidməti barədə də məlumat vermək istərdim. Etibarlı mühafizənin təşkil olunması qarovula cəlb olunan şəxsi heyətin ayıq-sayıqlığından və xidmətin nümunəvi aparılmasına birbaşa təsir edən yüksək döyüş hazırlığının və möhkəm hərbi intizamın olmasından asılıdır. Bu baxımdan komendant bölüyündə xidmət edən şəxsi heyət bilik səviyyəsi və dünyagörüşü nəzərə alınmaqla, nizam-intizamlı, nümunəvi xidməti, verilən tapşırıqları dəqiq və cəld yerinə yetirmək qabiliyyətinə, eləcə də yüksək döyüş hazırlığına malik olan müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları arasından seçilir. Seçilmiş hərbi qulluqçuların xidmətə hazırlanması və onların təlimat-

landırılması da mühüm şərtdir.

Bölük komandiri baş leytenant Röyal Əzizov bölükdə mövcud olan yüksək döyüş hazırlığını və hərbi intizamı saxlamaqla bərabər, hissə komandanlığının etimadını hər zaman qorumaq əzmində olduqlarını bildirdi.

Bölük komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Əli Əliyevlə birgə hissənin qarovul məntəqəsinə də baş çəkdim. Ayıq növbə ilə qarovul xidmətinin xüsusiyyətləri, nizam-intizamın qorunub saxlanılması mövzusunda tərbiyəvi söhbətlər apardım. Funksional vəzifələri ilə yanaşı, Daxili Qoşunların respublikamızın ərazi bütövlüyü uğrunda keçdiyi qəhrəmanlıqlarla zəngin döyüş yolu barədə suallara da dolğun və dürüst cavab verdilər.

Taqım komandirinin müavini gizir Murad Əfəndiyev, manqa komandirləri: çavuşlar Elmir Atakişiyev, Ceyhun Dadaşov, Vaqif Pirquliyev, əsgərlərdən baş əsgər Nəbi Hüseynov, əsgər Samir Sərkərli və əsgər Fərid Əmrahov bölüyün nümunəvi xidmət edən fəal hərbi qulluqçularındandır.

Baş leytenant Ə.Əliyev adları qeyd edilən hərbi qulluqçuların bölükdəki digər yoldaşlarına da nümunə olduqlarını bildirdi.

mayor Anar Əhmədov

4 - 2_Layout 1 31.10.2019 14:47 Page 1

Şəhidlərimiz

İGİD OĞUL QEYRƏT TACI, UCALIQ ZİRVƏSİDİR

Torpağa qoyular şəhid kürəyi,
Şəkli könüllərin aynasındadır...

Şair İlyas Tapdığın bu misraları şəhidlik zirvəsinin müqəddəsliyini ifadə edir, Vətən naminə həyatını qurban vermiş oğulların xalq yaddaşında silinməz iz buraxdığı gerçəyini anladır. Həqiqətən də şəhid adının arxasında doğma torpağa və aid olduğu xalqa sonsuz ehtiram dayanır. Döyüş sınağında düşmənə sinə gərən, ölüm qorxusuna ruhən qalib gələn şəhidlərimizin mənəvi gücünün mənbəyi onların vətənpərvərliyi idi.

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının sıralarında şərəfli döyüş yolu keçərək şəhidlik zirvəsinə ucalmış hərbi qulluqçularımızdan biri də kiçik çavuş Piriyev Faiq Həbib oğludur. O, 1973-cü il iyunun 12-də Sumqayıt şəhərində dünyaya göz açıb. Piriyevlər ailəsinin sonbeşiyi idi. Onun ata yurdu Qubadlı rayonudur, anası Gülüzar Piriyeva isə əslən Zəngilandandır. Faiqin babaları Adışirin Piriyev və Tapdıq Bayramov 1941-1945-ci illərdə alman faşistlərinə qarşı döyüşlərdə iştirak ediblər. Atasının əmisi Salam Piriyev isə həmin müharibədə həlak olub. Bu fədakarlıq nümunələri Faiqin vətənpərvərlik əqidəsinin formalaşmasına təsir göstərib. Valideynləri və müəllimlərinin onu milli ruhda tərbiyə etməsi də gəncin xarakteri, dünyagörüşü, şəxsi keyfiyyətlərində öz əksini tapıb.

1987-ci ildə Gürcüstanın Xobi rayonundakı Çaladidi kəndində təbii fəlakət zamanı köməksiz vəziyyətdə qalmış, ölüm təhlükəsi ilə üzləşmiş sakinləri seldən xilas edərkən həlak olmuş azərbaycanlı hərbi qulluqçu Rahib Məmmədovun göstərdiyi cəsurluq bir çox gənc kimi, Faiq üçün də qürur və şücaət örnəyi idi. O, bu örnəyi gənc ömrünün sonunadək unutmayıb.

Anasının dediyinə görə, Faiq olduqca həssas qəlbli, qayğıkeş, ailəsinə bağlılığı ilə seçilən, yoldaşlıqda etibarlı, zəhmətkeş, təbiəti sevən, istedadlı gənc idi.

Rəssamlıq sənətinə maraq göstərib, qeyri-adi üslubda rəsmlər çəkib. Bu rəsmlərin arasında anasının portretinin əks olunduğu lövhə ailə üçün çox dəyərli yadigarlardan biridir.

Faiq, həmçinin, idmanın cüdo növü ilə məşğul olub, bu sahədə də onun məharəti, əzmkarlığı, öz fiziki hazırlığına, sağlam həyat tərzinə ciddi diqqət yetirməsi müsbət cəhətləri kimi xatırlanır.

Sumqayıtdakı 28 və 33 nömrəli orta məktəblərdə təhsil almış Faiq həm dərslərində çalışqan, həm də ictimai işlərdə fəal şagird kimi fərqlənib. Orta məktəbdən sonra ali təhsil almaq, tələbə olmaq arzusuna qovuşa bilməyib. Belə ki, qəbul imtahanında müsabiqədən keçməyib, o dövrdə test üsulu tətbiq edilmədiyindən, abituriyentlər üçün müəyyən çətinliklər yaranırdı. Ancaq Faiq bir qədər məyus olsa da, ruhdan düşməyib, özünü hərbi xidmətə hazırlayıb.

F.Piriyev 1991-ci ilin dekabr ayında Sumqayıt Şəhər Hərbi Komissarlığı (hazırda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sumqayıt Şəhər İdarəsi - Y.A.) tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb. O, həmin dövrdə yeni formalaşan Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının ilk əsgərlərindən biri olub. Həmin vaxt Daxili Qoşunların tərkibində fəaliyyət göstərmiş 7535 saylı hərbi hissədə (1993-cü ilin yanvar ayında Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin tabeliyinə keçirilib, hazırda mövcud deyil – Y.A.) hərbi xidmətə başlayıb. Bu hərbi hissədə hərbi andı qəbul edib. Burada qısa müddət ərzində bacarıqlı və nizam-intizamlı hərbi qulluqçu kimi komandirlər və əsgərlər arasında hörmət qazanıb. Hərbi hissənin təyinatından irəli gələn vəzifələrin yerinə yetirilməsi zamanı Faiq üzərinə düşən tapşırıqları məsuliyyət hissi ilə icra edib. Təsadüfi deyil ki, onun adı xidmətdə və təlimdə qabaqcıllar siyahısında qeyd olunub. Daxili Qoşunların ön cəbhəyə göndərilən ilk hərbi qulluqçularının sırasında Faiq də olub. Belə ki, 1992-ci il mart ayının 12-dən etibarən Daxili Qoşunların ayrı-ayrı hərbi hissələrinin şəxsi heyətindən ibarət birləşmiş dəstə Ağdam rayonu ərazisinə ezam edilərək düşmənə qarşı döyüşə başlayıb. 7535 saylı hərbi hissənin hərbi qulluqçusu kimi Faiq də bu birləşmiş dəstənin tərkibində 1992-ci ilin mart-aprel aylarında Ağdam rayonunun Papravənd və Qalayçılar kəndlərinin müdafiəsində dayanıb. İlk döyüş sınaqlarından alnıaçıq çıxan Faiq qətiyyəti və cəsarəti ilə döyüşçü yoldaşlarına nümunə idi. Papravənddə döyüşçülərlə birgə zirehli texnikanın üzərində çəkdirdiyi foto ailə albomunda qorunub saxlanılır.

Sonra, 1992-ci ilin iyun ayından başlayaraq Faiq Daxili Qoşunların 3650 saylı hərbi hissəsinin (indiki 67987 saylı hərbi hissə - Y.A.) tərkibində erməni işğalçılarına qarşı döyüşlərdə iştirak edib. Onun döyüş yolu Ağdam-Ağdərə döyüş bölgəsinin bir çox yaşayış məntəqəsi və yüksəkliklərindən keçib. Ağdam rayonunun Əliağalı, Yeni Qaralar kəndlərinin müdafiəsi, Əsgəran istiqamətindəki Fərrux yüksəkliyi, o vaxt Ağdərə rayonuna aid Canyataq, Gülyataq və Mehmanə kəndlərinin azad edilməsi uğrunda döyüşlərdə mərdlik nümunələri göstərib, düşmənin texnikasına sarsıdıcı zərbələr vurub, canlı qüvvəsini tələfata uğradıb, atəş nöqtələrini susdurub, silah-sursatını qənimət götürüb.

Daxili Qoşunların Arxivindən verilən 19.09.2019-cu il tarixli müvafiq arayışda qeyd olunub ki, 3650 (67987) saylı hərbi hissə komandirinin 21.07.1992-ci il tarixli əmri ilə F.Piriyevə "kiçik çavuş" hərbi rütbəsi verilib və o, manqa komandiri vəzifəsinə təyin edilib. Hərbi hissə komandanlığı tərəfindən ona dəfələrlə təşəkkür elan olunub.

Kiçik çavuş F.Piriyevin döyüş bölgəsində taqım komandiri olmuş müharibə veteranı, 2-ci qrup əlil, ehtiyatda olan gizir Sərxan Mehdiyev söhbət zamanı onu hərbi anda son nəfəsinədək sadiq qalan, qorxmaz, ürəyi Vətən sevgisi ilə döyünən, komandirinin əmrini fədakarcasına yerinə yetirən, iradəli, döyüşkən, sərt müharibə reallığında insani keyfiyyətlərini itirməyən hərbi qulluqçu kimi xatırladığını söylədi.

S.Mehdiyevin verdiyi məlumata və şəhidin ailəsinin təqdim etdiyi sənədlərdəki qeydlərə görə, kiçik çavuş F.Piriyev 1992-ci il oktyabrın 14-də Qazançı kəndi ətrafındakı yüksəklik uğrunda döyüş zamanı cəsurcasına vuruşub, düşmən postlarından birini qumbaralarla partladıb. Ancaq yaralı döyüş yoldaşını atəş altından çıxararkən özü də ağır yaralanıb. Ön cəbhədən Bakıya hərbi qospitala gətirilən Faiqin həyatını xilas etmək üçün həkimlərin səyləri nəticəsiz qalıb. Bədənində onurğa sütununda ciddi fəsadlar yaradan güllə yarası onun ölümünə səbəb olub. Həyatının son günlərində anası hərbi qospitalda yanında qalıb.

6 noyabr 1992-ci il tarixli ölüm haqqında şəhadətnamədə Faiqin ölüm tarixi 25 oktyabr 1992-ci il göstərilib. O, Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub.

33 nömrəli orta məktəbdə şəhid hərbi qulluqçumuzun xatirəsinə barelyef qoyulub. 1998-ci ildə "Sumqayıt" nəşriyyatında

çap olunmuş, Əşrəf Veysəlli və Tofiq Əliyevin müəllifi olduqları "Sumqayıtın qan yaddaşı" kitabında şəhid haqqında məlumat verilib. Ayrı-ayrı qəzetlərdə onun döyüş yolu barədə yazılar dərc edilib. Faiqə həsr edilən şeirlər də yazılıb.

Uzun illər övlad itkisinin acısı ilə yaşamış şəhidin atası Həbib Piriyev dünyasını dəyişib. Anası, qardaşı və bacıları üçün Faiqin yoxluğu ilə barışmaq çox ağırdır. Ancaq Faiq kimi şəhid oğulların ucaldığı qeyrət zirvəsi doğmalar üçün qürur duyğusu və təsəllidir.

Şəhidlərin torpağımızda qoyduğu iz bizi haqqa aparan yoldur.

Allah rəhmət eləsin!

Yalçın Abbasov

KOMANDA-QƏRARGAH TƏLİMİ KEÇİRİLİB

Oktyabrın 24-də 25031 saylı hərbi hissədə "Cinayət törətmiş silahlı şəxsin (şəxslərin) tutulması və zərərsizləşdirilməsi üzrə xüsusi əməliyyatda xüsusi təyinatlı dəstənin, əsas, köməkçi idarəetmə məntəqələrinin fəaliyyəti" mövzusunda komanda-qərargah təlimi keçirilib.

Təlimin keçirilməsində məqsəd qərargahların əməliyyat şəraitinin düzgün qiymətləndirilməsi, əldə olunmuş məlumatların təhlil olunması, silahlı cinayətkarların ehtimal olunan hərəkətləri və onlara qarşı adekvat fəaliyyətin müəyyən edilməsi, əməliyyata doğru qərarın qəbul edilməsi də təlim zamanı diqqətdə saxlanılıb.

İlk olaraq, komanda-qərargah təliminin təşkil olunub keçirilməsi üçün müvafiq xidməti sənədlər hazırlanaraq, Daxili Qoşunlar komandanının 1-ci müavini - Qərargah rəisi tərəfindən təsdiq edilib, aidiyyəti üzrə idarə, şöbə və xidmətlərə, eləcə də təlimə cəlb olunan hərbi hissələrə göndərilib. Təlimin keçirilməsinə hazırlıq mərhələsində təlimin keçirilməsi üçün əməliyyat şəraiti işlənilib, ilkin məlumatlar aydınlaşdırılaraq, aidiyyəti şəxslərə tapşırıqlar verilib. Təlimə cəlb edilən bölmələrin və şəxsi heyətin sayı dəqiqləşdirilib, eləcə də təlimin keçirilmə ardıcıllığı müəyyən edilib.

"Xüsusi əməliyyatın təşkili və keçirilməsi" mərhələsində təlimə cəlb olunan hərbi hissələr tərəfindən cəlb olunan bölmələr arasında koordinasiyanın təkmilləşdirilməsi olub. Həmçinin, şərti əməliyyatın xəritə üzərində işlənilməsi və silahlı cinayətkarların zərərsizləşdirilməsi üzrə xüsusi əməliyyat başlanılıb, kəskin dəyişən əməliyyat şəraitinə uyğun komandir heyəti tərəfindən qərarlar qəbul edilərək, əməliyyata cəlb olunan bölmələrin komandirlərinə müvafiq tapşırıqlar verilib. Təlim zamanı əməliyyata cəlb olunan bölmələrin müəyyən edilmiş koordinatda toplanılması, cinayətkar şəxslərin zərərsizləşdirilməsi, əhatəetmə və arama kimi fəaliyyətlər də nəzərdən keçirilib.

Sonuncu - "Xüsusi əməliyyatın başa çatması və daimi dislokasiya yerinə qayıtma" mərhələsində hissə komandirləri tərəfindən şəxsi heyətin, silah-sursatın və xüsusi vasitələrin, texnikanın, rabitə və digər maddi vasitələrin yoxlanılması, bölmələrin ərazilərdən çıxması və daimi yerləşmə yerinə qayıtması təşkil edilib.

Təlimin bütün mərhələlərində komandir heyəti tərəfindən qəbul edilmiş qərarlar müzakirə edilərək, ortaya çıxan suallar aidiyyəti vəzifəli şəxslər tərəfindən cavablandırılıb.

Sonda komanda-qərargah təliminə yekun vurulub, komandanlıqların, qərargahların və idarəetmə orqanlarının gələcəkdə peşə hazırlığının daha da yüksəldilməsi üçün müvafiq tapşırıq və tövsiyələr verilib.

baş leytenant
Xədicə Hacızadə

HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

ABŞ ordusunun "Apache" helikopterləri modernləşdirilmiş turellərlə təmin olunacaq

ABŞ ordusu bu yaxınlarda "Lockheed Martin"lə AH-64E helikoperlərinə modernləşdirilmiş turellər (M-TUR) istehsal etmək üçün 40.6 milyon dollarlıq müqavilə imzalayıb. Ordu.az xarici KİV-ə istinadən xəbər verir, bu turellər M-TADS və PNVS qurğuları ilə helikopterin hədəf alma və gecə görmə imkanlarını artıracaq.

Qeyd olunur ki, müqavilənin imzalanmasında məqsəd helikopterlərin etibarlılığını artırmaq, olunan texniki xidmət və dəstək xərclərini azaltmaqdır.

M-TADS/PNVS "Apache" pilotlarını uzun məsafəli və dəqiq nişan almaq bacarıqları ilə gecə-gündüz, pis hava şəraitində müvəffəqiyyətli və təhlükəsiz uçuşla təmin edir.

Türkiyə Pakistan üçün hərbi gəmi inşasına başlayıb

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Pakistana satılacaq yeni bir hərbi dəniz gəmisinin inşasına həsr olunmuş mərasimdə Türkiyənin dünyada milli imkanlardan istifadə edərək döyüş gəmiləri qura, dizayn edə və saxlaya bilən yalnız 10 ölkədən biri olduğunu qeyd edib.

Bildirilir ki, Pakistan üçün tikilən döyüş gəmisi MİLGEM adlandırılıb.

Xatırladaq ki, Pakistan Hərbi Dəniz Qüvvələri 2018-ci ildə Türkiyədən dörd MİLGEM sinifinə məxsus gəmilərin alınması üçün müqavilə imzalayıb.

Rusiya yeni S-500 kompleksini Suriyada sınaqdan keçirib

Rusiyanın yeni S-500 "Prometey" Zenit-Raket Kompleksi Suriyada uğurla sınaqdan keçirilib. Ordu.az xəbər verir ki, bu barədə Rusiya Müdafiə Nazirliyi məlumat yayıb.



Məlumata görə, havadan müdafiə sahəsində aparılan sınaqlar zamanı avadanlıqların işində bir sıra nasazlıqlar aşkar edilsə də, problemlər tez həll olunub. Ümumilikdə sınaqlar uğurla başa çatıb.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000